# Ermənistanın revanşist siyasəti iflasa məhkumdur

***Sentyabrın 12-dən başlayaraq, Azərbaycan–Ermənistan sərhədində baş verən təxribatın səbəbləri və nəticələri barədə danışarkən, ilk növbədə, onu qeyd edək ki, həmin tarixdə Laçın, Kəlbəcər və Zəngilan rayonları istiqamətində yaşanan gərginlik işğalçı ölkənin revanşist siyasətinin, mövcud vəziyyəti öz xeyrinə dəyişdirmək cəhdinin məntiqi nəticəsidir.***

Uzun müddət idi ki, Ermənistan beynəlxalq aləmdə Azərbaycana qarşı kampaniya aparır, sülh danışıqlarını, kommunikasiyaların açılmasını, ümumilikdə regionda təhlükəsizliyin təmin olunması istiqamətində irəli sürülən bütün təşəbbüsləri və atılan addımları sabotaj edir və 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatın müddəalarının icrasından boyun qaçırırdı. Ermənistanda revanşist ab-hava qızışdırılırdı, “torpaqların qaytarılması”, “Qarabağın müstəqilliyinin təmin edilməsi” və s. bu kimi iddialar süni şəkildə stimullaşdırılırdı.

Ermənistan hakimiyyəti ordunu bərpa etmək istiqamətində iş aparır, Rusiya, ABŞ, Avropa ölkələrindən silah alınması və ordunun təchizat məsələlərinin həlli istiqamətində tədbirlər görürdü. Paralel olaraq Qarabağa hərbçilər və silah göndərir, orada yeni müqavimət nöqtəsi yaradılmasına cəhdlər edirdi. Digər tərəfdən, Ermənistan Azərbaycanla sərhəddə yeni hərbi obyektlər yaradır, Kəlbəcər və Laçın istiqamətində gələcək hücum üçün plasdarm formalaşdırılırdı.

Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda Vladivostokda keçirilmiş forumda çıxışı zamanı faktiki olaraq yeni hərbi qarşıdurma iddiası səsləndirdi və bu açıqlama sentyabrın 12-də başlanan gərginliyin siyasi anonsu oldu.

Bütün bunlar isə Ermənistanın uzun müddət revanşa hazırlaşdığından və bunun üçün həm siyasi, həm hərbi, həm də informasiya zəmini yaratdığından xəbər verirdi.

***(ardı 3-cü səhifədə)***

# Ermənistanın revanşist siyasəti iflasa məhkumdur

*(əvvəli 1-ci səhifədə)*



Laçının təhvil verilməsi isə Ermənistan hakimiyyəti üçün növbəti ağır zərbə oldu və beləliklə, daxil təzyiqləri neytrallaşdırmaq, ictimai rəyi dəyişmək üçün növbəti hərbi-siyasi avantüraya başladı.

Azərbaycan dəfələrlə ən müxtəlif səviyyələrdə Ermənistanın revanşist siyasətini ifşa edib, həyata keçirilən hazırlıqların hansı məqsədə xidmət etdiyini faktlar əsasında göstərib və Ermənistan hakimiyyətini bu cəhdlərin onun özü üçün ağır nəticələrə gətirib çıxaracağı barədə Ermənistan hakimiyyətini xəbərdar edib.

Bu məqamda onu da deyək ki, Azərbaycan İkinci Qarabağ müharibəsindən ötən müddətdə sülh sazişinin bağlanılması istiqamətində atdığı addımlar zamanı Ermənistanın bir sıra maneələri ilə üzləşib. İstər İrəvanda, istərsə də Qarabağda revanşist qüvvələr tərəfindən Vətən savaşı başa çatandan bu vaxtadək işğalçı ölkədə iğtişaşlar törətmək, əhali arasında çaşqınlıq yaratmaq və Ermənistan–Azərbaycan sərhəd xəttində silahlı münaqişə gerçəkləşdirməklə bağlı saysız cəhdlər göstərilib. Şübhəsiz ki, əsas məqsəd iki dövlət arasında illərlə davam edən düşmənçiliyi daha da dərinləşdirmək, sülh sazişinin imzalanması yönündə fəaliyyəti məhdudlaşdırmaq, həmçinin məlum üçtərəfli Bəyanatın müddəalarının icrasının qarşısını almaq olub.

Bir sözlə, erməni revanşizmi daim Azərbaycanla Ermənistan arasında mövcud ziddiyyətləri kəskinləşdirməyə, yaranan uçurumu daha da dərinləşdirməyə can atıb. Bütün bunlar Ermənistanın mahiyyətinin dəyişməz olduğundan, münaqişənin dinc vasitələrlə tənzimlənməsinə maraq göstərmədiyindən, işğalçılıq siyasətini davam etdirməkdə israrlılığından xəbər verib.

Bu il aprel ayının 23-də Azərbaycan–Ermənistan dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində düşmənin silahlı qüvvələrinin diversiya qrupunun torpaqlarımıza daxil olaraq təxribatlar törətmək cəhdi, qəsbkar respublikanın və Qarabağdakı separatçı rejimin quldur hərəkətlərinin qarşısını almaq məqsədilə həyata keçirilən "Fərrux" və "Qisas" əməliyyatları, nəhayət, sentyabrın 12-də gecə saatlarında həyata keçirdiyi silahlı fitnəkarlıq bunun bariz nümunəsidir.

Azərbaycana qarşı yönələn bu cür vəhşilik, əslində, Ermənistanın 2020-ci il 10 noyabr tarixində imzalanan birgə Bəyanata olan həyasız münasibətinin məntiqi nəticəsidir. Həmin sənədin dördüncü maddəsinə uyğun olaraq, işğalçı silahlı birləşmələrini Azərbaycan ərazilərindən dərhal çıxarmalı idi. Lakin məlum Bəyanatın digər maddələrinə münasibətdə olduğu kimi, bu maddəyə də saymazyana yanaşdı. Başqa sözlə, Ermənistan tərəfi növbəti dəfə öz imzasına hörmətsiz yanaşdığını, sözdə sülhpərvər, əməldə isə işğalçı, təxribatçı əməllərinə sadiqliyini nümayiş etdirdi. Bu, eyni zamanda, Ermənistanın yekun sülh sazişinin imzalanmasından, Azərbaycanla münasibətlərin normallaşdırılmasından yayındığını aydın göstərirdi.

Burada onu da qeyd edək ki, Vətən müharibəsinin gedişində olduğu kimi, savaşdan ötən iki ilə yaxın bir müddətdə də Ermənistan törətdiyi vandallıqlara görə Azərbaycan tərəfindən lazımi cavabını alanda da fitnəkarlığını, ikiüzlülüyünü nümayiş etdirir. Bütün dünyaya təzyiqə məruz qalması, haqsızlıqla qarşılaşması kimi yalan məlumatlar yayır, ölkəmizin sülh sazişinin imzalanmasında əngəl törətməsi barədə təsəvvür yaratmağa cəhd göstərir. Təbii ki, artıq bütün dünya Ermənistanın mahiyyətindən xəbərdar olduğu üçün bu uydurmalara, yalanlara, saxta ittihamlara inanmır.

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı 13 sentyabr tarixli təxribatlarının əsasında da əvvəllər törədilən fitnəkarlıqlarda olduğu kimi, işğalçının faşist niyyəti dayanıb. Belə ki, sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin diversiya qrupları tərəfindən sutkanın qaranlıq vaxtında Azərbaycan Ordusunun mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasının qarşısının dərhal alınması məqsədilə bölmələrimizin təxirəsalınmaz tədbirlər nəticəsində döyüş toqquşması baş verib. Qarşı tərəfin Basarkeçər, İstisu, Qarakilsə və Gorus yaşayış məntəqələri istiqamətində yerləşən silahlıları tərəfindən Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqlar və dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən, minaatanlardan intensiv atəşə tutulub. Nəticədə ordumuzun bu istiqamətlərdə dislokasiya olunan bölmələri tərəfindən qəti cavab tədbirləri görülüb, işğalçının atəş nöqtələri susdurulub.

Göründüyü kimi, Ermənistanın indiki fitnəkarlığının qarşısının alınması da işğalçının ərazilərimizi minalaması, mina terrorunu həyata keçirməsi ilə bağlı olub.

Bu məqamda vurğulayaq ki, İkinci Qarabağ müharibəsindəki böyük qələbədən sonra işğaldan azad edilən ərazilərimizin abadlaşdırılması, yenidən həmin ərazilərdə yaşayışın təmin edilməsi üçün ilk gündən bərpa-quruculuq işləri tam sürətlə davam etdirilib. Lakin savaşdan ötən iki ilə yaxın bir müddətdə də xalqımız erməni barbarlığından xilas ola bilməyib. Belə ki, işğal illərində olduğu kimi, müharibə qurtardıqdan sonra torpaqlarımızdan çıxmaları üçün məğlub ölkənin vətəndaşlarına vaxt verildiyi zamanda, eləcə də sonrakı dönəmdə düşmən faşist xislətinə sadiq qalaraq, Azərbaycan torpaqlarını minalamaqdan əl çəkməyib. Bu hərbi sursatın partlaması nəticəsində isə xeyli sayda insan həyatını itirib, yaxud şikəst olub.

Xatırladaq ki, düşməndən təmizlənən ərazilərimizin minalanması səbəbi ilə müharibədən sonra itkilərimiz davam edib. Belə ki, 10 noyabr Bəyanatından sonra ermənilərin mina terroru nəticəsində indiyədək 100-dən çox mülki vətəndaş minaya düşüb, onlardan 32 nəfər həlak olub. Eyni zamanda, 124 hərbçi minaya düşüb, onlardan 7-si həyatını itirib, 117-si isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Yeri gəlmişkən, 1999-cu ildən beynəlxalq hüquqi qüvvəyə malik Ottava Konvensiyası piyada əleyhinə minaların istifadəni, istehsalını, yığılmasını və ötürülməsini qadağan edir. Həmçinin konvensiyaya görə, əraziləri minalamış tərəf müharibə bitdikdən sonra dəqiq hazırlanmış mina xəritəsini qarşı tərəfə verməyə borcludur. Vətən müharibəsi başa çatdıqdan indiyədək mina xəritələrinin verilməsi beynəlxalq platformalarda dəfələrlə müzakirə olunsa da, Ermənistan buna məhəl qoymur. Bir çox təzyiqlərdən sonra məğlub ölkə mina xəritələrini ölkəmizə təqdim etsə də, araşdırmalar nəticəsində məlum olub ki, onların dəqiqliyi cəmi 25 faiz təşkil edir.

Burada dəhşətli məqam, həm də odur ki, bu il avqustun 15-də Laçın rayonunun şərq hissəsində, Sarıbaba yüksəkliyinin şimal-qərb istiqamətində qanunsuz erməni silahlı dəstələrinin basdırdığı piyada əleyhinə mina sahəsi aşkar edilib. Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının bölmələri tərəfindən ərazinin kəşfi aparılıb. Aşkarlanan minalar xüsusi hazırlıq keçmiş istehkam qrupu tərəfindən zərərsizləşdirilib və həmin minaların Vətən müharibəsindən sonra - 2021-ci ildə Ermənistanda istehsal olunduğu müəyyənləşdirilib.

Göründüyü kimi, rəsmi İrəvan bu dəfə də Azərbaycanla sərhəddə təxribat törətməklə beynəlxalq ictimaiyyəti yenə aldatmağa, yenə özünü "yazıq", "günahsız" göstərməyə, "həmişə əzilən" erməni xalqı obrazı yaratmağa çalışıb. Halbuki işğalçı Ermənistan İkinci Qarabağ müharibəsindən ötən iki ilə yaxın bir müddətdə təkcə Qarabağ və Şərqi Zəngəzurda silahlı fitnəkarlıqlar törətməklə kifayətlənməyərək, mina təxribatlarını davam etdirib.

Bu vandal əməl işğaldan azad olunan 26 min 455 hektar ərazidə 7558 ədəd piyada, 2342 ədəd tank əleyhinə minanın və 9944 ədəd partlamamış döyüş sursatının aşkarlanaraq məhv edilməsi faktı ilə təsdiqlənib. Yeri gəlmişkən, xatırladaq ki, Laçın və Kəlbəcər rayonları ərazisindəki dəqiqləşdirilmiş mövqelərdə qanunsuz erməni silahlı dəstələrinin basdırdığı piyada əleyhinə mina sahələrindən son on gün ərzində 72 ədəd 2019-cu ildə Ermənistanda istehsal olunan "PMN-E" növlü piyada əleyhinə və 2 ədəd tank əleyhinə mina çıxarılaraq daşınıb və təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Beləliklə, Ermənistanın törətdiyi təxribatlar onu göstərir ki, erməni faşizmi öz nifrətindən əl çəkmir, vəhşiliklərini müxtəlif yollarla ifadə edir. Təəssüf ki, işğalçının reallaşdırdığı mina terrorunu, vandallığı beynəlxalq aləm susqunluqla qarşılayır. Bir sözlə, bütün bu vəhşi əməllərin qarşısında dünya gücləri, nüfuzlu beynəlxalq təşkilatlar səssiz qalır. Bu barbarlıqla bağlı Azərbaycanın davamlı müraciətləri isə heç bir nəticə vermir.

Ermənistanın belə vandal əməllər törətməsi onun faşist xisləti ilə bağlı olsa da, qəsbkar bu məsələdə həm də Azərbaycanın işğaldan azad edilmiş sərhədyanı rayonlarında həyata keçirdiyi irimiqyaslı mülki infrastruktur layihələrinin icrasını ləngitmək və Azərbaycan sərhədləri yaxınlığında gərginlik mühitini saxlamaq məqsədi güdür.

Ermənistanın davam edən hərbi avantüra və revanşizm siyasəti, son bir ay ərzində Kəlbəcər, Laçın, Daşkəsən və Gədəbəy istiqamətlərində ordumuzun mövqelərini intensiv atəşə tutması və sonuncu genişmiqyaslı təxribatları da Azərbaycanın həyata keçirdiyi bərpa layihələrinin icrasının qarşısını almaq üçün vəziyyəti gərginləşdirməkdir. Məhz belə halda işğalçının silahlı hücumunun qarşısının alınması və necə deyərlər, yerində oturdulması ilə bağlı tədbirlərin görülməsi məsuliyyəti də məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Ermənistan həmişə olduğu kimi, indi də bir məsəldə deyildiyi kimi, doğrunun bağrının yarılması üçün qışqırır, hay-küy salır. Baş nazir Nikol Paşinyanın bir sıra ölkələrin dövlət başçılarına, ayrı-ayrı beynəlxalq qurumların rəhbərlərinə etdiyi müraciətlərdə guya Azərbaycan Ordusunun mülki əhalini, obyektləri və infrastrukturu hədəfə alması tamamilə yalandır, həqiqəti əks etdirmir. Bunların hamısı Ermənistan tərəfinin yaydığı növbəti dezinformasiyadır. İşğalçının təxribatlarına cavab olaraq həyata keçirilən əks tədbirlər lokal xarakter daşıyıb və atəş nöqtəsi olan legitim hərbi hədəflərə qarşı yönəlib. Cavab tədbirləri kiçikmiqyaslı və hədəflənən olmaqla Azərbaycan sərhədlərinin təhlükəsizliyini reallaşdırmaq və təcavüzkarın təxribatlarına son qoymaq məqsədi daşıyıb.

Yeri gəlmişkən, Ermənistan Azərbaycana qarşı uzun illər ərzində hərbi cinayətlər törətməklə xalqımızın gözünü qorxutmaq, yeni ərazilər işğal etmək məqsədi güdüb. Bu vəhşiliyə baxmayaraq, xalqımız öz iradəsindən dönməyib, haqq yolunda mübarizəsini qətiyyətlə davam etdirib. Silahlı Qüvvələrimiz dinc insanların, şəhidlərin qisasını döyüş meydanında alıb, Ermənistanın yaşayış məntəqələrinə, dinc sakinlərinə atəş açmayıb. Dövlətimizin başçısının vurğuladığı kimi, bu, bir daha xalqımızın böyüklüyünü, ləyaqətini göstərib.

Bir sözlə, Azərbaycan Müdafiə Nazirliyinin məlumatında bildirildiyi kimi, mülki obyektlərin və günahsız insanların hədəfə alınması Ermənistan silahlı qüvvələrinin tətbiq etdiyi fitnəkarlığa əsaslanan standart hərbi metodologiyanın bir hissəsidir. Otuz illik işğal dövründə və 44 günlük Vətən müharibəsində də məhz Ermənistan tərəfinin ballistik raketlər və kasetli bombalarla qəsdən və məqsədyönlü şəkildə Azərbaycan şəhərlərini, həmçinin mülki əhalini hədəfə alması da bunun bariz ifadəsidir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***